# Həyat Qafar Cəfərlinin təsvirində

## *Təzadlar üzərində düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Azərbaycanın ədəbi təsərrüfatında nəsr xüsusi yer tutur. Xüsusilə XIX əsrin II yarısından sonra bədii nəsr get-gedə ədəbi düşüncənin aparıcı qüvvəsinə çevrildi. Mirzə Fətəli Axundovun “Aldanmış kəvakib” povesti nəsrin inkişafına yeni bir yol açdı. Sonralar Mirzə Fətəli Axundovun, Nəriman Nərimanovun, Sultan Məcid Qənizadənin, Mirzə Cəlilin, Yusif Vəzirin, Talı Şahbazi Simurğun, Böyükağa Talıblının, Abdulla Şaiqin nəsr əsərləri ədəbiyyatın ağırlıq mərkəzini müəyyən etdi. Əlbəttə, XX əsrin 20-ci illərindən sonra Azərbaycan ədəbiyyatının Sovet dövrü mərhələsinin möhtəşəm nəsr əsərləri yarandı. Süleyman Rəhimov, Mirzə İbrahimov, Əbülhəsən və qeyriləri Azərbaycan bədii nəsrinin möhtəşəm nümunələrini yaratdılar. Doğrudur, nəsrin hekayə ilə meydana çıxması sürətlə yerini daha geniş həyat lövhələrinin təsviri ilə formalaşan janrlara verdi. Roman janrı əsas aparıcı qüvvə olsa da, kiçik həcmli nəsr əsərlərini, xüsusilə də hekayə janrını sıxışdırıb aradan çıxara bilmədi.

Müasir dövrümüzün kiçik həcmli nəsr əsərlərini yaradan görkəmli sənətkarlarımız sırasında bir çoxlarının adlarını çəkmək olar. Ancaq mənə elə gəlir ki, sadalayacağımız hər hansı bir fakt sadəcə yaddaşı təzələmək vasitəsi ola bilər. Ona görə təfərrüata varmadan elə Qafar Cəfərlinin hekayələri haqqında mülahizələrimi davam etdirmək fikrindəyəm.

Bədii əsəri Belinski bir zaman həyatın bir parçası hesab edirdi. Əgər həqiqətən bədii əsər həyatın bir parçasıdırsa, onda hekayə janrında qələmə alınmış bədii əsər həyatın seçilmiş bir parçasının ən qabarıq təsviri ilə yenidən insana çatdırılmasıdır. Hər bir insan özü həyatın bir parçasıdır. Hekayədə isə insan yaşadığı dövrün, mühitin və demək, həyatın bir parçasını görürsə, onda elə bil ki, özünə təzədən baxa bilir. Qafar Cəfərlinin hekayələrində biz əsasən Azərbaycanın ikinci dəfə öz istiqlalına qovuşmasından sonrakı mərhələnin taleyini görürük. Hər birimizə yaxşı məlumdur ki, bu mərhələ 30 illik işğalla nəticələnmiş Qarabağ müharibəsi ilə daha çox xarakterizə olunur. Qarabağ müharibəsi öz xarakteri baxımından yeni nəslin gözü qarşısında baş verməsi ilə çox bağlıdır. İndiki nəsil demək olar ki, həmin müharibədən keçib gəlib. Bu müharibə ən müxtəlif dərəcədə Azərbaycan insanının həyatında iz buraxıb. Qarabağ mövzusunda yazılmış istər poetik örnəklərdə, istərsə də, nəsr əsərlərində, lap elə incəsənətin digər növ və janrlarında meydana çıxmış əsərlərdə sanki şahidi olduğumuz bir hadisəni görür. Həmin hadisənin hansısa tərəfində özümüzü axtarırıq. Kiminin obrazı daha qabarıq görünür, kiminin obrazı kölgə kimi nəzərə çarpır. Bütün hallarda Qarabağ müharibəsi Azərbaycan xalqının taleyindən keçir. Qafar Cəfərli Azərbaycan mənəvi mühitinin ən müxtəlif tərəflərini uğurla bədii nəsrə gətirən yazıçıdır. Onun bir neçə hekayəsi haqqında söhbət açmışam. İndi digər hekayələrinə - “Saatın 61-ci dəqiqəsi”, “Haçiko”, “Bir ömrün fəsilləri”, “Hippokratın vəsiyyəti”, “Bumeranq”, “Altıncı barmaq”, “Malış”, “Sonuncu hesablaşma” və “Qisas gecəsi” adlı əsərlərinə diqqət yetirməyi vacib hesab edirəm. Əlbəttə, bu hekayələrin hər birinə ayrı-ayrılıqda diqqət göstərmək çox vacibdir. Əvvəlcə, hekayələrin adlarına da nəzər yetirmək bəs edər ki, Qafar Cəfərlinin mühüm həyati məsələlərə necə fəal münasibət göstərdiyinin şahidi olaq. Birinci “Saatın 61-ci dəqiqəsi” hekayəsi haqqında danışmaq istərdim. Hekayənin adı çox maraqlıdır.

Fəal ədəbi-publisistik çıxışları ilə fərqlənən dostum Əli Rza Xələflinin elə bu hekayə ilə bağlı sosial şəbəkədə yayımlanan mülahizələri diqqətimi cəlb etdi. O yazır: “Cənub bölgəsinin ədəbi simaları həmişə diqqətimdə olub. Onların tanınan ədəbi mühit təmsilçilərini birinci növbədə yaradıcılıqlarında görməyə çalışmışam. Xüsusilə, Azərbaycan ədəbiyyatının cənub bölgəsi üzrə ən yaxşı tədqiqatçılarından biri kimi Yədulla Ağadadə ilə bu istiqamətdə çoxlu söhbətlərimiz, polemikalarımız olub. Professor Yədulla Ağazadənin ədəbi düşüncələrini bu mühiti öyrənmək üçün çıxış nöqtəsinin əsas göstəricisi bilmişəm. Onunla söhbətlərimizin məğzində Qafar Cəfərli ədəbi şəxsiyyəti və onun yaradıcılığı da mühüm mövzu olub. Çünki əsas həqiqətlər polemikalarda üzə çıxır. Q.Cəfərli yaradıcılığının əsas məziyyətlərini mənə anlatdığı üçün birinci növbədə Y.Ağazadəyə borcluyam. Yəqin ki, bu tanınmış sənətkarın, dövrümüzün istedadlı nasirinin ədəbi həyatı ilə bağlı gələcəkdə daha geniş bəhs edəcəyimə inanıram. Burada konkret olaraq ədəbi düşüncəmdə özünə yer etmiş bir hekayəsi ilə bağlı qısa-konkret mülahizəmi bildirmək istərdim.

Qafar Cəfərlinin “Saatın 61-ci dəqiqəsi” adlı hekayəsi var. Əvvəla, bu hekayənin adı kifayət qədər diqqəti çəkəndir. Vaxtı ilə insan düşüncəsinin məkandan çıxmasını Anar “Beş mərtəbəli evin altıncı mərtəbəsi” adlı əsərində göstərib. Yeni dövr gənc nasirlərimizdən Etibar Muradxanlı “İlin beşinci fəsli” əsərində zamandan çıxmanı göstərir. Ümumiyyətlə, zamandan çıxma da, məkandan çıxma da həyatın qeyri-adi halıdır. İnsan düşüncəsinin sanki kosmosdan müşahidəsidir. Elmi mülahizələrə görə kosmosdan Yeri müşahidə edərkən hətta yeraltı faydalı qazıntıların məkanını da görmək mümkündür. Demək, həm məkandan çıxma, həm də zamandan çıxma düşüncənin alt qatını görmək və qavramaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Maraqlıdır ki, Qafar Cəfərlinin “Saatın 61-ci dəqiqəsi” hekayəsində nə zamandan, nə də məkandan çıxma məsələsi qoyulmur. Bu hekayədə zamanın hətta bir anlığa da olsa, dayanması məsələsi qoyulur. Əlbəttə, söhbət insan düşüncəsinin dayanması ilə özünün düzgün məcrasına yönələ bilər. Əsərin qəhrəmanı Hünər adına uyğun olaraq həyatını fəal mövqe ilə müəyyənləşdirir. Taleyini Azərbaycanın taleyindən ayırmır. Və nəhayət, insanlığa atılan güllə onun bədəninin bir parçasını itirməsinə səbəb olur. Hekayə Hünərin həyat düşüncələrini çözməsi ilə yazıya gətirilir. Hünər həyatını birər-birər gözlərinin önündən keçirir. Axır ki, həyatının ən mənalı çağlarını yaddaşında çözür. Və bu zaman məlum olur ki, onun həyatının rəvan getməsinə doğmalarından tutmuş yadlara, yağılara qədər hər kəs mane olub. Nəhayət, Hünər düşmən uşağının həlak olmasına dözmür. Özünü çaya atır, Azərbaycan torpaqlarını qana qərq edən erməni uşağını xilas edir. Elə bu zaman yağının gülləsi sanki onun mübariz, fəal həyatını elə buradaca qırır. Əslinə qalsa, elə həmin andan Hünər üçün həyat dayanır. Demək, zaman da, məkan da elə əslində düşünən insanın həyatı ilə çox bağlıdır. Zənnimcə, Qafar Cəfərli həyata müdrikcəsinə yanaşmanın ən yaxşı təzahürü kimi bu hekayədə istəyinə nail olur”. Dostum Ə.R.Xələflinin bu qeydləri göstərir ki, müəllif həyat hadisələrinə orijinal yanaşma ilə təsirli bir lövhə yarada bilib.

Hekayə başlayan kimi biz ayağını itirmiş müharibə qəhrəmanının sanki cəmiyyət tərəfindən unudulmuş həyatı ilə qarşılaşırıq. İndi artıq onu həyatının ahəngdar axarını başlanğıcından dağıtmış atası ümumi vəziyyəti düzəltmək üçün cəhd edən anası həyatda yoxdur. Ən başlıcası, bütün taleyini qurban verdiyi və ona bircə oğul övladı qoyub getmiş Leylası da həyatda yoxdur.



Biz hekayənin qəhrəmanını artıq həyatının bir parçası olan süni ayaqla, yəni protezlə münasibətdə görürük: “Hünər protezin qayışlarını elə dartdı ki, az qaldı yerindən qopsun. Əyilib çətinliklə protezi çıxardıb dolabın böyünə dayadı və dərhal da dizinin protezə oturan yerini acgözlüklə qaşımağa başladı. Sonra elə bil sakitləşdi, həmin yeri sığalladı və qaldırıb kreslonun üstünə qoydu, dərindən köks ötürdü, kürəyini arxaya verib gözlərini yumdu. Ayılanda bu vəziyyətdə nə qədər qaldığını bilmədi, heç bu müddətdə nə barədə düşündüyünü də xatırlamadı. Amma gözlərini açanda nəzərləri qəfildən dolaba söykənmiş protez ayağa sataşdı. Qorxdu, elə bil kimsə tikələrə parçalayıb ayağının bir hissəsini də gətirib evə qoymuşdular. Həmin kəsilmiş ayaqdan o qədər qan axmışdı ki, rəngi saralıb solmuşdu. Hünər anidən duruxdu, kədər, qəm-qüssə boğazını tutdu, ürəyi sıxıldı. Protez ona yarımçıq olan ayağı əvəz etsə də, əslində yarımçıq qalan bədənini, yarımçıq qalan ömrünü, yarımçıq qalan həyatını xatırlatdı. Bu an azğında duzlu bir tam hiss elədi. Bu tamın susuzluqdan cadar-cadar olmuş torpaq kimi üzündəki qırışlarla dodağına, ordan isə ağzına axan göz yaşından olduğunu anladı. Xəyalı onu düz iyirmi il əvvələ apardı”. Elə bu epizod göstərir ki, o gərgin psixoloji durum yaşayır. Bir evin altında oğlu ilə tək-tənha yaşayır. Onun oğlunun adı Nicatdır. Zənnimcə, bu adın özü də təsadüfi deyil. Burada müəllifin həyata nikbin münasibətini də görürük.

Əsərin qəhrəmanına Hünər adının seçilməsi müəllifin idealına xidmət edir. Son anda hadisələrin kəskin dəyişməsi Hünərin fiziki iqtidarını əlindən alır. Amma onun həyata ləyaqətli insan gözü ilə baxışlarını dəyişə bilmir. Maraqlıdır ki, Hünər bütün iztirablara baxmayaraq, onu zillətlərə düçar etmiş həyat yolundan peşman deyil. Doğrudur, Hünər Azərbaycandan çıxıb getmişdi. Rusiyanın hansı şəhərindəsə dolanışıq imkanı da tapmışdı. O, vətənə qayıtmaya bilərdi. Amma vətənin ağır gününə Hünər və onun dostları kənardan baş verən hadisələri müşahidə etmək istəmir. Birbaşa hadisələrin içərisinə qayıtmaq qərarına gəlirlər. Hekayənin sonunda əsərin qəhrəmanı Hünərin divardan asılmış və gənclik dövrünün xatirəsi olan şəkilə baxaraq həyatının həmin çağlarını gözlərinin önünə gətirərək sarsıdıcı təəssürat oyadır.

Hünər ona bir oğul övladı qoyub getmiş Leylası ilə yaşadığı həmin illəri gözlərinin önünə gətirir. Və bu zaman müəllifin çox təsirli təsviri ilə qarşılaşırıq: *“Düşüncələrindən Hünərin dodaqları qaçdı, üzü təbəssümə qərq oldu. Hünər həyatında ilk dəfə, səbəbini bilmədiyi göz yaşlarını əlinin arxası ilə sildi. Üstündən illər keçsə də, yalnız indi anladı ki, bədəni kimi ruhu da, nəfəsi də yarımçıq qalıb, bu cür yaşamaq isə onun üçün çətin, özü də çox çətin idi.*

*Hünər üzgün halda gözlərini şəklin üstündə gəzdirdi, sonra dodaqlarına yaxınlaşdırıb gözlərini yumdu.*

*Divardakı saat 61-ci dəqiqədə ilişib qalmışdı.*

*... Növbəti günün tamamında qohum-qonşular Hünərin qıc olmuş barmaqları arasındakı əzilmiş şəkli çətinliklə götürə bildilər”.* Bu hekayəni müəllif 2018-ci ilin yanvarında qələmə alıb. Zənnimcə, hekayənin yazılması Azərbaycan mənəvi mühitinin artıq işğala dözümsüzlük zamanına təsadüf edir və müəllif işğalla barışmazlığı qabarıq verməyə çalışır. Hünərin tar-mar olmuş həyatının qisası alınmalı idi. Zaman isə hələ ki, durğunluq dövrü yaşayır. Ancaq buna baxmayaraq yeraltı maqma kimi insan düşüncəsinin içərisində qaynama prosesi gedirdi. Azərbaycan ordusu dayanmış zamanı hərəkətə gətirdi.

“Haçiko” hekayəsi də maraqlıdır. Əvvəlcə Haçikonun dünya ədəbiyyatında və kino sənətində özünə yer tutmuş obrazı ilə bağlı tarixi və həyati fakt xatırlanır. Burada sahibinə sədaqətli itdən söhbət gedir. Hər halda yaponlar həssas, sahibinə sədaqətli itin taleyini onun yaşadığı məkanda əbədiləşdiriblər.

Qafar Cəfərli isə öz “Haçiko”su ilə sanki həmin itin Azərbaycan variantını yazıya gətirir. Hekayə birinci şəxsin dilindən danışılır. Şübhəsiz, bu hekayədə də müharibə obrazı qabarıq görünür. Hekayəni danışan şəxsin öz dostu haqqında düşüncələri bizi müharibə səhnələri ilə üz-üzə gətirir. Hekayəni danışanın dostu vəfat edib. Ancaq onun iti dostunun məzarını tək buraxmır. Onu da deyim ki, bu hekayə bir çox motivlərinə görə qəhrəmanların adları fərqli olsa da, bundan əvvəl söhbət açdığımız hekayənin məzmunu ilə çox səsləşir: *“Qonşu məzarda dayanmış orta yaşlı kişi çox təsirli şeylər söylədi.*

***(Davamı 11-ci səhifədə)***

# Həyat Qafar Cəfərlinin təsvirində

## Təzadlar üzərində düşüncələr

*(Əvvəli 10-cu səhifədə)*

*Demə, bu məzar dul qalmış bir qadının Etibar adlı tək oğlunun imiş. O da ay yarım əvvəl xəstəlikdən dünyasını dəyişib. Körpəliyindən saxladığı və cəmi bir neçə aylıq olan bu it də sahibinin cənazəsi ilə qəbiristanlığa gəlib və həmin vaxtdan bu ətrafda dolanır. Hər gün də məzarın ziyarətinə gəlir. Düzü, təəccübdən yerimdə donub qalmış, nəzərlərimi itdən ayıra bilmirdim. İt yenə öz aləmində idi. Cibimdən çörək parçası çıxarıb qabağına atdım. İt əvvəlcə üzümə baxdı, sonra zingildəyib başını aşağı əydi və çörəyi dişləməyə başladı. Çörəyi ağzına alsa da, güc-bəla çeynəyib udduğunu görəndə narahat oldum. Əyilib belini tumarladım, üz-gözünü sığalladım. Qucağımda qəbiristanlıqdan çıxanda da zingiltisi gəlirdi, amma səsi güclə eşidilirdi”.* İt və insan münasibəti ən müxtəlif çalarlarda dünya ədəbiyyatında mühüm yerlərdən birini tutur. Hətta burada biz Cek Londonun “Tonqal” hekayəsini də xatırlaya bilərik. Hekayədə it sahibinin ona xəyanət edəbiləcəyini gözlərindən oxuyur. Amma Qafar Cəfərlinin hekayəsindəki Haçiko sahibinin xatirəsinə çox bağlıdır.

Bu hekayədəki Haçiko çox hissiyyatlıdır. Sanki insanların nə danışdığını belə hiss edir. Söhbət gəlib ermənilərin qəddarlığı üzərinə çatanda hekayəçi düşməni itə bənzədir. Elə bu yerdə də Haçikonun əsas məziyyəti üzə çıxır. Ona mehribanlıq göstərənlərdən Haçiko inciyir. Axı nə üçün pis adamlar itə bənzədilməlidir. Halbuki biz bu hekayədə itin son dərəcə insana sədaqətli, humanist, yəni əsl insanpərvər münasibətini görürük. Hekayədən çıxan nəticə budur ki, hətta ermənilərin vandal təbiəti itlə müqayisəyə belə yaramır.

“Bir ömrün fəsilləri” hekayəsi günümüzün əhvalatları əsasında yazılıb. Yazıçı bir insanın ayrı-ayrı həyat mənzərələrini sanki ilin fəsilləri ilə müqayisəyə çəkir.

Bu əsərdə Rasim adlı gəncin yaşadığı xoşbəxt günləri müəllif real həyat faktları kimi göstərir. Zaman-zaman insanın təbiətində olan dəyişikliyi ilin fəsillərinə müvazir tutur. Rasimin də həyatının bahar fəsli tez ötür. Əhvalatı danışanın dediklərindən belə məlum olur ki, Rasim dolanışıq arxasınca xaricə gedib. Demək olar ki, həyatını təmin edəcək qazancla qayıdıb. Biz hekayədə Rasimin həyat yoldaşı və övladları ilə xoşbəxt günlərini görə bilirik. Amma tezliklə fəsil dəyişir. Rasimin qarşısına Naza adlı bir qadın çıxır. O, məzhəbli, imkanlı bir məmurun qızıdır. Rasim onun puluna, imkanlarına şirnikir. Həqiqi sağlam ailə həyatının təravətini, demək olar ki, açıq xəyanəti ilə dağıdır. Naza Rasimə qədər bir neçə dəfə ərdə olub. Elə bu faktın özü Rasim üçün əslində tutarlı səbəb olmalı idi ki, ayıla bilsin. Rasim başa düşmür ki, əvvəlki ərlərinə xəyanət edən Naza bir gün də ona xəyanət edəcək. Axır ki, müxtəlif qucaqlarda xumarlanan Naza Rasimin bütün imkanlarını əlindən alır, onu küçəyə atır.

Biz hekayədə Rasimin həyatının payız fəslini görürük. Hekayənin sonunda yurdsuz-yuvasız qalan Rasim payız küləyinin iliyə işləyən soyuğu altında bulvarda büzüşüb qalıb. Onun son düşüncələri də kifayət qədər təsirlidir: *“Danışa-danışa əvvəlcə səsi, sonra çiyinləri titrədi. Daha sonra bütün bədəni əsməyə başladı. Onun ürək parçalayan səslə ağlaması yoldan keçənlərin diqqətini çəkirdi, amma heç kim yaxınlaşmağa cürət etmirdi. Mən bərk kövrəlsəm də, bunu ona sezdirməməyə çalışırdım. Üzgün dəqiqələr bir-birini əvəz edirdi. Birdən ailəmin məni gözlədiklərini xatırladım. Qeyri-iradi köks ötürüb bir kəlmə belə demədən ayağa durdum, əslində deməyə heç sözüm də qalmamışdı. Əlimi cibimə atanda əlli manatlıq çıxdı. Pulu onun ovcuna basıb xudafizləşmədən, arxaya dönüb ona baxdım. Altında oturduğu iri ağacın saralıb-solmuş yarpaqları üstünə tökülməkdə idi”.* İş təkcə bununla bitmir. Müəllif bircə cümləsi ilə hekayəyə sonluq verir: *“Külək güclənmişdi, deyəsən, yenə yağacaqdı!..”.* Və oxucu inanır ki, növbəti yağıntı qar olacaq, özü ilə şaxta gətirəcək və çətin ki, bu payızdan Rasim salamat çıxa bilsin. Biz bu hekayədə təbiətinin, əxlaqının ziddiyyətlərini həll edə bilməyən insanın faciəsini görürük, zənnimcə, real həyatın bir parçasıdır və hər kəs üçün kifayət qədər ibrətlidir.

Qafar Cəfərli insanın taleyi üçün səmimiyyətin dəyərini əsas götürür. Doğruluğun, ləyaqətin, məhz səmimiyyətdən keçdiyini “Hippokratın vəsiyyəti” hekayəsində çox təbii detallarla təsvir edir. Hekayə birinci şəxsin dilindən danışılır.

Məlum olur ki, əhvalatın şahidi olan şəxs əsl insan həyatı yaşamış, ləyaqətlə ömür sürmüş birisinin tale acıları fonunda gördüklərini insanlıq üçün ibrət hesab edir və buna görə də bu əhvalatı yerli-yataqlı danışır. Biz bu hekayədə iki həkim obrazı görürük. Hər iki həkim həyatın hər üzünü görmüş Nadir müəllimin taleyi ilə bağlı öz təbiətlərini üzə çıxarırlar.

Birinci həkim Boris adlı şəxsdir. Onun ailə üzvləri zamanın dəyişilməsi fonunda Azərbaycandan köçüb gedirlər. Həyat yoldaşı da vəfat edir. Ancaq Boris ömrünün qalan çağını Azərbaycandan kənara çıxmaq istəmir. Burada qalıb öz evində kiçik bir tibb guşəsi açır və burada insanlara məsləhətləri ilə kömək etməyi qərara alır. Beləliklə, əhvalatı danışan şəxs dostu Nadir müəllimi də götürüb Borisin yanına gəlir. Ondan Nadirin müalicəsi üçün kömək istəyir.

Kifayət qədər həyat sürmüş, təcrübəsinə güvənən Boris xəstənin psixoloji durumunu müşahidə edir, onun ağrılarını diqqətlə öyrənir. Vəziyyətin çox ciddi olduğunu başa düşür və xəstənin təcili onkoloji mərkəzə getməsini tövsiyə edir. Bundan sonra biz ikinci həkimlə qarşılaşırıq. Biz xəstəxanada insanların necə iztirab keçirdiklərini, adamların mənəvi gərginliklərini təsvirləri vasitəsi ilə görürük.



Burada rastlaşdığımız İlyas həkim Borisdən fərqli olaraq gülərüzdür, mehribandır. Xəstəyə müxtəlif müayinələr təyin edir, analizlər alır. Axır ki, sözümün sonunda xəstənin heç bir müalicəyə ehtiyacı olmadığını bildirir. Nəhayət, qəbulun sonunda müxtəlif bəhanələrlə dolanışığın çətinliyini diqqətə çəkir. Axır ki, xəstədən xeyli pul alır və bunu da belə əsaslandırır ki, Hippokrat belə vəsiyyət edib. Gərək xəstə ilə dil tapasan, onu uğurlu gələcəyə inandırasan.

Burada təzədən Boris yada düşür. Boris də Hippokratı yada salmışdı. Demişdi ki, müalicə etmədiyin şəxsdən gərək təmənna ummayasan.

Məlum olur ki, xəstə tezliklə həyatını itirəcək. Xəstənin yas məclisində hadisənin şahidi iki həkimin arasında əyləşib. Bu epizodu da müəllif dəqiq cizgilərlə verir: “... Üç gündən sonra Nadir müəllim dünyasını dəyişdi. Hüzürün birinci gecəsi Boris həkim təsadüfən zəng edib xəstənin əhvalını soruşanda vəziyyətdən xəbər tutuldu. Heyfsləndiyini deməklə bu cür nəticənin 95 faiz gözlənilən olduğunu bildirdi.

Sabahısı məclisin gur vaxtında İlyas həkim gəldi. Mən onun yanında oturdum. İlyas həkim baş sağlığı verib mərhuma rəhmət dilədi. Sonra isə azacıq mənə tərəf əyilib astadan qulağıma pıçıldadı:

- Rəhmətlik yanımda olanda son günlərini yaşadığını bilirdim. Əslində bütün müayinələrdə buna işarələr var idi. Amma neyləyək, Hippokrat bizə vəsiyyət edib ki, xəstənin ürəyini ələ alıb razı yola salmalısan. Elə bu vaxt Boris həkim hüzn çadırının kandarında göründü. Mən əl işarəsi ilə onu sağ tərəfimdəki boş stula dəvət etdim. O, məclislə salamlaşıb göstərdiyim yerdə əyləşdi.

Məclisdə olduğumuz dəqiqələr ərzində həkimlərlə söhbət edir, oğrun-oğrun onları seyr edib günlərdir ürəyimdə şişib qalan “Kim haqlıdır?” - sualına cavab axtarırdım”.Həyatın təzadına bax. İki həkim, iki insan - biri gülərüz, mehriban, ancaq xəstənin dərdinə heç bir əlac etməsə də, onun gözü onun cibindədir. Acgözdür, tamahkardır. Yalanı da özünəxas, süni şirinliklə insanın damarlarına yeritməyi bacarır. Digəri son dərəcə ciddidir. Səmimidir. Bir insan olaraq ləyaqətini tamahından çox yuxarıda tutur. Elə buna görə də, şübhəsiz, biz onu təqdir edirik.

Qafar Cəfərli bu epizodla sanki həyatın ağ və qara rənglərini qarşılaşdırır. Seçim etməyi, düzgün çıxış yolu tapmağı insanların öz ixtiyarına buraxır.

Növbəti hekayədə müəllif məcazi məna kəsb edən Bumeranq obrazından istifadə edir. Bumeranq hinduların ov zamanı istifadə etdiyi silahdır. Onu düşmənə, ya ova atan şəxs bilir ki, əgər hədəfə dəyməsə, bumeranq onun özünə qayıdacaq. Müəllif bu alətin iş prinsipinə ictimai məzmun verir. Yəni, əgər bu gün biz həyatda hər hansı bir səhv addım atırıqsa, kiməsə qarşı laqeydlik göstəririksə, gözümüz görə-görə cinayətə rəvac veririksə, bunun zərəri mütləq özümüzə dəyir. Əlbəttə, “Bumeranq” hekayəsi də məzmun baxımından yeni deyil. Amma təsvir olunan hadisə həyatın bir epziodu kimi gözlərimizin önündə canlanır. Biz istəristəməz belə bir hadisənin şahidi olduğumuzun fərqindəyik. Həyatını tamahını təmin etmək məqsədi ilə necə olur-olsun pul qazanmağa sərf etmiş Məmişin timsalında əslində cəmiyyətin bətnində yaşayan xəstəlik daşıyıcısını görürük. Onun idealını belədir ki, necə yaşayırsan, yaşa, təki, pul qazan. Oğlu Rəmişi də məhz bu yola təlqin edir.

Qafar Cəfərli bəzi təəssüratları adlar vasitəsi ilə də oxucuya təqdim edir. Məmişin oğlunun adının Rəmiş olması təsadüfi deyil. Yəni atasının adına həmqafiyədir. Başqa sözlə, atasının yolunu davam etdirəndir. O, pul gücünə tibb universitetini sürünə-sürünə qurtarır. Və heç bir savadı, tibbi bacarığı olmadan səhiyyə obyektlərindən birində şöbə müdiri vəzifəsinə irəli çəkilir. Burada da işçilərdən bütün gücü ilə pul təmənnasındadır. Yəni necə işləyirsiniz, işləyin, xəstələri soyun. Onların doğmalarını görməmiş, pullarını almamış heç kimi müalicə etməyin. O, belə bir tələb qoyur. Axır ki, bir gün xəstəxanaya çox ağır qəzadan sonra ölümcül zədə almış bir nəfəri gətirirlər. Müalicə həkimi xəstənin vəziyyətinin ağır olduğunu, danışa bilmədiyini, ancaq nələrisə demək istədiyini, qohumlarının tapılmadığını Rəmişə çatdırsa da, o razılaşmır. Əlinin işarəsi ilə pul gətir deyir. Beləliklə qəzadan zədə almış həmin şəxs köməksizlikdən ölür. Əsas mahiyyət də elə bundan sonra üzə çıxır.

Qafar Cəfərlinin yığcam təqdimatında “Bumeranq”ın mahiyyətini asanlıqla anlamaq mümkün olur: “Hər ikisi gülüşdülər. Bu zaman Kazım otağa girib elə qapı ağzındaca: “- Həkim, meyiti morqa aparırlar” - deyə xəbər verdi. Adətən meyitin morqa aparılması ölü sahiblərinin böyük narazılığı, səsküyü ilə müşayiət olunduğundan bu dəfənin sakit keçməyinə Rəmiş həkim ürəyində sevindi və polis zabiti ilə bir yerdə otaqdan çıxdılar. Meyit xərəyə qoyulmuş, üstü qana bulaşıq mələfə ilə örtülmüşdü. Polis nəfərləri xərəyi çıxartmaq üçün şöbənin giriş qapılarını taybatay açanda külək meyidin üstündəki mələfəni qaldırdı. Rəmiş həkim bir anlıq yerində donub qaldı, hədəqəsindən çıxmış gözlərlə xərəkdəki cəsədə baxaraq ilk əvvəl bir addım geri çəkildi və dərhal da bütün varlığı ilə “Ataaaa!” - deyə qışqıraraq meyitin üstünə sərildi. Onun fəryad dolu səsi gecənin zülmət qaranlığında uzaqlarda belə əks-səda verdi”. Beləliklə, qəddar həkim Rəmişin cinayətkar əməli öz başında çatlayır. Ağır qəzadan sonra onun rəhbərlik etdiyi xəstəxanaya gətirilən atasına yardım olunmur. Son anda ölmüş atasının meyidini yola salanda da onun idbar sifətində iyrənc bir gülüş görünür.

Bütün hallarda həyat heç bir əməli cavabsız qoymur.

***(Davamı var)***